ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# Beynəlxalq Təhsil İcmalı

## İçindəkilər

**02.** Pandemiyanın yaratdığı şokdan xilas olmaq və daha yaxşısını yenidən inşa etmək

**04.** Erkən uşaq təhsilinin əhəmiyyəti və faydaları

**06.** COVID-19 pandemiyası zamanı və sonra ümumi təhsil məktəblərinin yuxarı sinif müəllimlərinin İKT-dən istifadəsi

**08.** Pandemiya dövründə peşə təhsili

**10.** Real dil mühitində öyrənmənin təşkili



# Pandemiyanın yaratdığı şokdan xilas olmaq və daha yaxşısını yenidən inşa etmək

Beynəlxalq Təhsil Akademiyası və UNESCO tərəfindən dövri olaraq nəşr olunan Təhsil Təcrübələri (Educational Practices) seriyasının 34-cü buraxılışı COVID 19 və təhsil mövzusuna həsr olunmuşdur. Həmin buraxılışda Harvard Universitetinin professoru Fernando Reimers tərəfindən qələmə alınan *"Təhsil və COVID 19: Pandemiyanın yaratdığı şokdan xilas olmaq və daha yaxşısını yenidən inşa etmək"* adlı kitabça təqdim olunmuşdur.

Kitabçada pandemiya və post pandemiya dövrlərinə aid təhsil strategiyalarının hazırlanması məqsədilə həyata keçirilmiş müxtəlif tədqiqatlar və bu tədqiqatların nəticələri haqqında məlumatlar əks olunmuşdur. Əlavə olaraq, müəllif apardığı təhlillərə əsaslanaraq təhsil strategiyaları və fəaliyyət planlarının hazırlanmasına dair tövsiyələr vermişdir.

Fernando Reimersin kitapçasında təhlil olunan tədqiqatlardan biri də böhranın təsirlərini araşdırmaq məqsədilə "Save the Children" təşkilatının 2020-ci ildə 46 ölkədə uşaqlar və ailələr üzərində həyata keçirdiyi araşdırmadır. Bu tədqiqatın nəticələrinə görə əksər uşaqlar (83%) və valideynlərdə (89%) pandemiya səbəbindən mənfi emosiyaların artdığı müşahidə edilmişdir. Müvafiq tədqiqatda valideynlərin 46%-i uşaqlarında psixoloji stressin yarandığını bildirmişlər. Pandemiyanın başladığı dövrdən etibarən fiziki məhdudiyyətli uşaqlarda ağlama və qışqırma hallarının 17% artdığı və bu vəziyyətin fiziki məhdudiyyəti olmayan uşaqlara nisbətdə üç dəfə çox olduğu aydın olmuşdur.

Kitabçada təhlil olunan bir digər araşdırma 2021-ci ilin I yarısında (mart ayında) Braziliyanın San-Paulo şəhərinin dövlət məktəblərində 5-ci, 9-cu və 12-ci sinif şagirdlərinin bacarıqlarının təhlili ilə bağlı həyata keçirilmiş tədqiqatdır. Bu tədqiqat nəticəsində məlum olmuşdur ki, 5-ci sinif şagirdlərinin riyazi bilikləri 2019-cu ildə 3-cü sinfi bitirdikləri zaman sahib olduqları biliklərlə müqayisədə aşağı düşmüşdür. 5-ci sinif şagirdlərinin oxuyub-anlama səviyyəsi 2019-cu ildə 3-cü sinifdə sahib olduqları səviyyə ilə müqayisədə yüksək olsa da, 2019-cu ildə 5-ci sinifdə təhsil alan şagirdlərin səviyyəsindən xeyli aşağı idi. Uruqvayda 3-cü və 6-cı sinif şagirdlərinin iştirakı ilə həyata keçirilən bir araşdırmada məktəbi tərk etmə faizlərinin əhəmiyyətli dərəcədə artdığı müəyyən olunmuşdur. Dərs ili ərzində məktəbi tərk edən şagirdlərin faizi 2017-ci ildə 0.9% olduğu halda, 2020-ci ildə bu rəqəm 2.8%-ə qədər yüksəlmişdir. Məktəbi tərk etmə hallarının iqtisadi və mədəni cəhətdən həssas qruplara daxil olan şagirdlər üçün daha çox müşahidə edildiyi görünmüşdür.



Professor Reimers apardığı təhlillər nəticəsində təhsil siyasəti ilə bağlı qərarvericilərin COVID 19 pandemiyası və post pandemiya dövrünə aid cari prioritetlərinin əsasən üç hədəfi əhatə etdiyini müəyyənləşdirmişdir. Bu hədəflər;

- Mövcud pandemiya dövründə təhsil strategiyalarının effektivliyini artırmaq;
- Pandemiyadan sonrakı təhsil imkanlarını yaxşılaşdırmaq və yenidən inşa etmək;
- Gələcəkdə ola biləcək pandemiyalar zamanı təhsil sistemlərinin çevik adaptasiyası üçün lazımi elastikliyi yaratmaqdır.

Professor Fernando Reimersin pandemiyanın səbəb olduğu təhsil şokuna cavab tədbirləri olaraq təklif etdiyi fəaliyyətlərdən bəziləri aşağıdakı şəkildə qeyd olunmuşdur:




***Mənbə: Reimers, F. M. (2021). Education and Covid-19: Recovering from the shock created by the pandemic and building back better (Educational Practices series: 34). The International Academy of Education &UNESCO Publications***
[http://www.ibe.unesco.org/en/news/education-and-covid-19-recovering-shock-created-pandemic-and-building-back-better-educational](http://www.ibe.unesco.org/en/news/education-and-covid-19-recovering-shock-created-pandemic-and-building-back-better-educational)

# Erkən uşaq təhsilinin əhəmiyyəti və faydaları

Bu tədqiqat yazısı Perry Məktəbəqədər Layihəsinin (Perry Preschool Project - PPP) uzun müddətli faydalarını öyrənməyə əsaslanır. PPP əlveriş şəraitdə böyüyən Afrika və Amerikalı uşaqların sosial mobilliyini inkişaf etdirməyi hədəfləyən təsiredici erkən uşaq inkişafına yönəlmiş təhsil proqramıdır.

PPP yüksək keyfiyyətli erkən uşaq təhsili proqramıdır. Tədris proqramı idraki və qeyri-idraki bacarıqların inkişafına təkan vermək üçün hazırlanmışdır. Proqrama əsasən uşaqlar müəllimlərin rəhbərliyi altında fəaliyyətləri planlaşdıran, icra edən və əks etdirən fəal təhsilalanlardır. Uşaqlar seçim edir və problemləri həll edir. Müəllimlər isə öz fikir və rəylərini bildirirlər. 2017-ci il üzrə statistik göstəriciyə əsasən proqramın bir iştirakçıya düşən ümumi dəyəri 21,151 ABŞ dolları olub.





Sözügedən proqramın faydalarını araşdırmaq məqsədilə 50 il öncə proqram iştirakçıları olan şəxslər və onların yaxın ailə üzvləri haqqında məlumatlar toplanılıb. Əldə olunan nəticələr sübut edir ki, erkən uşaq təhsili proqramının iştirakçılar üzərində təsiri böyük miqyasda reallaşmışdır.
Proqramın ilkin iştirakçıları arasında mütəmadi şəkildə sorğu anketləri təşkil edilmişdir. Onlar orta hesabla 15, 19, 27, 40 və 54 yaşlarında sorğularda iştirak etmişdilər. İştirakçıların 54 yaşa qədər məktəb, polis və məhkəmə qeydləri də onların tam təhsili və cinayət tarixçəsini müşahidə etməyə imkan verirdi. 19, 27, 40 və 54 yaşlarında iştirakçılar cari və əvvəlki illərdə əmək gəlirlərini bildirirdilər.

Müşahidələr göstərir ki, proqram iştirakçıları yüksək qazanclı işlərə sahib oldular və onların cinayət törətmə halları azaldı. Yüksək qazanc isə öz növbəsində əyalət və federal gəlir vergisi bazasında artım yaradır. Vergi sonrası əmək gəlirlərindən ortalama fayda 43,4 min ABŞ dolları olaraq təxmin edilir. Eyni zamanda proqram iştirakçılarının cinayət tarixçəsinin az olması cinayət mühakiməsi xərclərinin və qurbanların maddi xərclərinin 79,3 min ABŞ dolları həcmində azaldığını göstərir. Həmçinin proqram iştirakçılarının yüksək gəlirinin olması sağlamlıq xərclərini də artırır. Proqramın nəsillərarası təhsilə böyük təsiri uşaqların ortalama həyat dövrü gəlirlərini 27 min ABŞ dolları həcmində artırır (2017-ci il). Eynilə, Perry Məktəbəqədər Layihəsinin iştirakçılarının həbs nisbətlərinin aşağı olması, daha müsbət bir həyat dövrü faydası yaradır.

Nəticə olaraq, PPP məktəbəqədər layihəsi iştirakçıların təhsilini və qazancını artırır, cinayətdə iştirakını azaldır, sağlamlığını və sağlam davranışlarını yaxşılaşdırır. Proqram investisiya etdiyi məbləğ üçün doqquz dəfəyə qədər artıq gəlir gətirir.

*Mənbə: García J.L., Bennhoff F.H., Leaf D.E., Heckman J.J. (2021). The Dynastic Benefits of Early Childhood Education. University of Chicago, Becker Friedman Institute for Economics Working Paper No. 2021-77 https://bfi.uchicago.edu/wp-content/uploads/2021/06/BFI_WP_2021-77.pdf*

# COVID-19 pandemiyası zamanı və sonra ümumi təhsil məktəblərinin yuxarı sinif müəllimlərin İKT-dən istifadəsi

İqtisadi əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) müxtəlif auditoriyalar üçün geniş bilik mənbəyidir. Təşkilatın 24 avqust 2021-ci il tarixli nəşrində "COVID-19 pandemiyası dövründə və ondan sonra orta məktəbin yuxarı siniflərində dərs deyən müəllimlərin İKT-dən istifadəsini dəstəkləmək" adlı məqaləsi çap olunmuşdur. Məqalə müəllimlərin pedaqoji praktikada İKT-dən səmərəli istifadəsinə dair pandemiyadan əvvəl aparılan tədqiqatlara əsaslanaraq aşkara çıxan çətinliklərdən bəhs edir. Bütün dünyada məktəb sistemləri İKT vasitəsilə təhsilin səmərəliliyini artırmağa səy göstərir. Çünki bu mövcud pandemiya dövründə daha vacibdir. Məqalədə qeyd olunur ki, uzun illərdir, İKT-nin təhsil sisteminə tətbiq edilməsinə baxmayaraq, müəllimlər bu sahədə kifayət qədər praktiki təcrübəli deyildilər. Yuxarı siniflərdə layihə və tapşırıqların hazırlanmasında bu təcrübəsizlik özünü daha çox göstərir. Məhz bu səbəbdən İKT-dən səmərəli istifadənin yollarını araşdırmaq lazımdır.

Müəllimlərin İKT-dən səmərəli istifadə etməsi, kollektiv və formal şəkildə tətbiq edilməsi köhnə təhsil sistemindən rəqəmsal təhsil sisteminə uğurlu keçidin açarıdır. Tədris praktikasında İKT-dən səmərəli istifadə, xüsusilə yuxarı sinif müəllimləri üçün diqqət edilməsi lazım olan məsələdir. Bu bir faktdır ki, İKT təhsil prosesini sadələşdirir və tədrisi daha maraqlı edir. Bu da layihələrin uğurlu icrasına və tədrisin keyfiyyətinə müsbət təsir edir.

Araşdırmada yoxlanılan amillərdən biri müəllimlərin formal təhsildə tətbiq olunan yeni dərs metodunu mənimsəməsi və tətbiqinə hazır olmasıdır. 2008-ci ildə yaradılmış tədris və təlim sahəsində beynəlxalq tədqiqat anketindən (TALIS) əldə edilən statistik göstəriciyə əsaslanaraq, tədqiqatçılar belə qənaətə gəlir ki, orta məktəb müəllimlərinin, demək olar, yarısı (43%) tədris zamanı İKT-dən istifadəyə özlərini hazır hiss etmirlər. 48 ölkənin və 260.000-dən çox müəllimin iştirak etdiyi sorğuda bu özünü daha çox göstərir. Belə ki, Xorvatiyada (62%), Albertada (Kanada) (57%), İsveçdə (57%) və Portuqaliyada (56%) orta məktəbin yuxarı siniflərində dərs deyən müəllimlər hələ də İKT-dən istifadədə çətinlik çəkirlər.

Araşdırmada İKT-nin yuxarı siniflərdə hansı fasilələrlə və hansı tapşırıqlarda istifadə edildiyini göstərən statistik məlumatlar təqdim edilir. Bu da daha çox və tez-tez şagirdlərin tənqidi təfəkkürə (65%) əsaslanan tapşırıqları yerinə yetirməsində özünü göstərir.

Araşdırmada orta məktəbin təcrübəli və az təcrübəli müəllimlərinin İKT-dən istifadə bacarıqları da müqayisə edilib. Nəticədə təcrübəli müəllimlərin İKT-dən istifadədə az bacarıqlı olduğu görünür. Bu da təcrübəli müəllimlərin yaşlı olmasından irəli gəlir. Az təcrübəli müəllimlərin İKT-dən istifadə zamanı bacarıqlı olması onların təhsil aldıqları müddətdə və peşə hazırlığında müntəzəm olaraq İKT-dən istifadə etmələridir.

İKT təliminə olan ehtiyacın müəllimlərin hazırlıq səviyyəsi ilə uyğun gəlməməsi də araşdırma zamanı üzə çıxdı. Belə ki, Xorvatiyada müəllimlərin 45%-nin İKT təlimi keçdiyi, onlardan yalnız 38%-nin tədris zamanı İKT-dən sərbəst istifadə etdiyi halda 21% müəllimin İKT təliminə ehtiyacı var. Danimarka, Türkiyə və Birləşmiş Ərəb Əmirliklərində İKT təliminə ehtiyac daha azdır. Bunun səbəbi həmin ölkələrdə müəllimlərin İKT-dən istifadə bacarığını sərbəst şəkildə artırmaq üçün kifayət qədər şəraitin mövcud olması göstərilir.
Araşdırmadan aydın olur ki, orta məktəblərin yuxarı siniflərində dərs deyən müəllimlərin dərslərində İKT-dən səmərəli istifadə etməsi üçün hələ çox işlər görülməlidir. Orta məktəb müəllimlərinin bilik səviyyəsinin təhsil sisteminin müasir tələblərinə cavab verməsi, rəqəmsal bacarıqları və İKT hazırlığını daha da gücləndirmək üçün davamlı olaraq təkmilləşdirmə kurslarının təşkil olunması tövsiyə olunur.



***Mənbə: OECD (2021), "Supporting teachers' use of ICT in upper secondary classrooms during and after the COVID-19 pandemic", Teaching in Focus, No. 41, OECD Publishing, Paris, https://doi.org/10.1787/5e5494ac-en.***

# Pandemiya dövründə peşə təhsili



BMT-nin Elm, Təhsil və Mədəniyyət Təşkilatı (UNESCO), BMT-nin Uşaq Fondu (UNICEF), Dünya Bankı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən OECD-yə üzv ölkələrin təhsil idarəçiləri ilə "COVID-19 pandemiyasının peşə təhsilinə və peşə hazırlığına təsiri" adlı sorğu keçirilmişdir. Sorğunun nəticələrinə əsasən hazırlanmış hesabatda peşə təhsilinin COVID-19 pandemiyası dövründə daha çox çətinliklərə məruz qaldığı göstərilir. Böhran dövründə başqa təhsil sahələrində istifadə edilən distant təlim resurslarının təcrübəyə əsaslanan peşə təhsili sahəsinə tətbiq edilə bilməməsi  bunun başlıca səbəbidir.

Pandemiyanın təhsil sisteminə təsiri nəticəsində dünyada təhsil müəssisələrində, o cümlədən peşə təhsili müəssisələrində təhsil distant formada təşkil olundu. Tədqiqatlar göstərir ki, yumuşalmalardan sonra da Hollandiya, Danimarka və Sloveniyada peşə təhsili sahəsi də daxil olmaqla təhsil sistemində müəyyən məhdudiyyətlər tətbiq olunacaq. Bu səbəbdən də qurumlar təhsilin davamlı olması üçün münasib yollar axtarışındadır.

Sorğudan əldə olunmuş nəticəyə əsasən belə qənaətə gəlmək olar ki, peşə təhsili müəssisələrində distant təhsilin tətbiqi, peşə kurikulumunun konseptual və ya intellektual komponentləri üzrə effektiv olsa da, təcrübə tələb edən tapşırıqlar üçün əlverişli deyil. Buna baxmayaraq, müxtəlif ölkələr təcrübə günləri nəzərə alınmaqla, təhsilin distant formada təşkil olunmasını məqsədəuyğun hesab edirlər.

Tədqiqatçılar pandemiya dövründə uzunmüddətli qapanmaların peşə müəssisələrinin akademik təqviminə də, həmçinin tədris planlarına da təsiri olduğunu qeyd edirlər. Beləliklə qapanmalar müəssisə rəhbərlərinin təqvim və tədris planında dəyişiklik etməsinə səbəb olur. Edilən dəyişikliklər qiymətləndirməyə və imtahanlara da təsir edir. Peşə təhsili müəssisələrində tələbələrin qiymətləndirilməsi onların bacarıqlarının nümayişinə əsaslanır. Bu səbəbdən də imtahanların pandemiya dövründə və ya müəssisələrin təkrar açılmasından sonra gigiyenik qaydalara əməl edilərək keçirilməsi mümkün deyil.

Tədqiqat göstərir ki, Fransa, İtaliya, Türkiyə, Norveç, Almaniya problemin həlli yolunu imtahan qaydalarına dəyişiklik etməkdə görür. Bu baxımdan tələbələrin standart və ya formativ üsulla qiymətləndirilməsini məqsədəuyğun hesab edirlər.

Tədqiqat pandemiya səbəbindən tələbələrin praktik dərslərdə iştirakının yetərli olmadığını aşkara çıxarır. Bu da nəticədə təhsilalanların praktik bacarıqlarının inkişafına mənfi təsir etdiyini aydınlaşdırmış olur. Nəticədə proses peşə təhsili alan tələbələrin kifayət qədər bilik və bacarığa yiyələnməsinə imkan vermir, onlarda məzun ola bilməmək qorxusu yaradır. Vəziyyətdən çıxış yolu kimi Estoniya və Fransada tələbələrə dəstək məqsədilə təcrübə müddətini uzatmağı və ya tədris proqramlarının praktik yönümlü hissələrini təxirə salaraq, nəzəri hissəsinə üstünlük verməyi uyğun hesab edirlər. Bununla yanaşı, təcrübə keçmək imkanı olmayan tələbələrin alternativ olaraq məktəb əsaslı təhlükəsizlik şəbəkə proqramlarında iştirakını təmin edirlər. COVİD-19 böhranı zamanı bu cür təcrübə proqramlarına Avstriya, Lüksemburq və Fransda tələbatın artdığı müşahidə olunur.

Hesabatda distant təhsil zamanı müəllimləri dəstəkləmək üçün yeni, sərbəst öyrənmə materialları, yeni təlim proqramları, müəllim şəbəkələrinin yaradılması və genişləndirilməsinin zəruriliyi vurğulanır. Eyni zamanda vəziyyətlə bağlı bütün təhsil müəssisələrində, o cümlədən peşə təhsili müəssisələrində distant təhsil formasına alternativ olaraq daha təhlükəsiz və bilik səviyyəsini yüksəldən hibrid təhsil formasına keçirilməsi tövsiyə olunur.

***Mənbə: OECD (2021), Implications of the COVID-19 Pandemic for Vocational Education and Training, OECD Publishing, Paris,***
***, https://www.oecd-ilibrary.org/education/implications-of-the-covid-19-pandemic-for-vocational-education-and-training_55afea00-en***

# Real dil mühitində öyrənmənin təşkili

Dünyanın ən böyük maliyyə və məlumat mənbələrindən biri olan Dünya Bank qrupunun (The World Bank Group) qlobal təhsil və elm üzrə mütəxəssisləri tərəfindən “Real dil mühitində öyrənmənin təşkili” adlı məqalə hazırlanmışdır. Məqalədə təhsil sahəsində geniş imkanların yaradılmasına baxmayaraq, dünya ölkələrinin hələ də təhsil sahəsində öyrənmə böhranı ilə qarşı-qarşıya qaldığı qeyd olunur. Çünki dünyanın müxtəlif ölkələrində ibtidai sinif şagirdlərinin əksəriyyəti 10 yaşına qədər sadə bir mətni oxuyub-anlamada çətinlik çəkir. Bu böhran onların məktəbdə uğur qazanmasını və gələcəyinə sərmayə yatırmağını zəiflədir. Məktəblərdə tədris dilinin fərqli olması da bunun əsas səbəbidir. Fərqli dildə təhsil alan şagirdlər həmyaşıdları ilə müqayisədə daha az bilik və bacarığa yiyələnir. Beləliklə uşaqları müvəffəqiyyətə aparmalı olan tədris dili çox vaxt ibtidai məktəbdən başlayaraq onları uğursuzluğa aparır. Tədqiqatçılara görə, şagirdlər şifahi nitq bacarıqlarına nə qədər yaxşı yiyələnərsə, oxumağı da o qədər sürətli və tez öyrənərlər.

Şagirdlərin real dil mühitində təhsil almaları onların tez və sürətli öyrənmələrinə, ikinci xarici dil, riyaziyyat, tarix və təbiət fənlərini mənimsəməyə və idrak bacarıqlarını mükəmməl şəkildə inkişaf etdirməyə, həmçinin təlimdə böhranın aradan qaldırılmasına kömək edir. Məqalədən aydın olur ki, uğurlu tədris dili siyasəti öyrənməni və məktəb inkişafını təkmilləşdirir, həmçinin ölkənin hər bir şagirdə düşən xərclərini azaldır və dövlət fondlarından bütün uşaqlar üçün təhsilin keyfiyyətini artırmaq məqsədilə daha səmərəli istifadə edilməsinə imkan yaradır. Məqalə şagirdlər arasında öyrənmə çətinliyinin aradan qaldırılması, onların rahat şəkildə öyrənməsi üçün aşağıdakı yanaşmaları təklif edir.

1. **Məktəbəqədər təhsildən başlayaraq və ən azı ibtidai məktəbin sonuna qədər uşaqları ana dilində öyrətmək;**
2. **Oxu, yazı, digər fənnlərin tədrisini ana dilində təşkil etmək;**
3. **Şifahi nitq bacarıqlarına diqqət yetirərək istənilən xarici dili tədris etmək;**
4. **Rəsmi tədris dili fərqli olsa da, ana dilini tədris etmək;**
5. **Tədris dili siyasətinin davamlı olaraq həyata keçirilməsini planlaşdırmaq, inkişaf etdirmək, uyğunlaşdırmaq və təkmilləşdirmək;**

Bu yanaşmaları düzgün təşkil etmək üçün təhsil sahəsində siyasət hədəflərə uyğun qurulmalıdır. Belə ki, təhsil sahəsində dil siyasətinin düzgün icrası, tədris dilinin real ünsiyyət dilinə uyğun seçilməsi, tədris və öyrənmə prosesinin səmərəliliyini artıra bilər. Bu da ikinci dilin daha asan öyrənilməsi, müəllim və şagird arasında təlim və tədris prosesinin yaxşılaşdırılmasını təmin edə bilər.

Tədqiqatda qeyd olunur ki, dil siyasəti həlledici əhəmiyyətə malik olsa da, onun icrası hədəfə uyğun deyil. Əksər məktəblərdə tədris dili düzgün seçilməmişdir. Bu da şagirdləri az və ya heç bilmədikləri bir dildə təhsil almağa məcbur edir. Sosial-iqtisadi vəziyyəti aşağı olan, şəhərdən kənar məktəblərdə təhsil alan şagirdlər bu çətinliklə daha çox qarşılaşır. Bu siyasəti tətbiq edən məktəblərdə şagirdlərin (90%) kommunikativ (dinləmək, danışmaq, oxumaq, yazmaq) və riyazi bacarıqlara yiyələnmədiyi öz təsdiqini tapıb. Buna baxmayaraq həmin məktəblərdə tədris dili hələ də ana dilindən fərqli dil olaraq qalır. Bu çətinlikləri aradan qaldırmaq üçün biliyin artırılmasında vacib amillərindən biri tədris dili siyasətinin savadlılığın təmin edilməsidir. Bu istiqamət üzrə tədbirlər paketinin yaxşı tətbiq olunması üçün qeyd olunan öhdəliklər də əlavə olunur:




Öyrənmə çətinliyini aradan qaldırmaq üçün təlimat baxımından qeyd olunan yanaşmaların nəzərə alınması zəruridir. Uğurlu tədris dili siyasəti müəllim və şagird arasında təlim və tədris prosesinin yaxşılaşmasına kömək edəcək. Eyni zamanda uğurlu tədris dili siyasəti əsas bacarıqların, eləcə də ikinci dilin daha asan öyrənilməsini təmin edəcək.

***Mənbə:*** *OECD (2021), Jaıme S ; Michael C; Venegas Marin,Sergio (2021).Loud and Clear : Effective Language of Instruction Policies For Learning (English). Washington, D.C. : World Bank Group*
*https://blogs.worldbank.org/education/improve-learning-teach-language-students-use-and-understand-best*